**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_________ dos. Zaur Məmmədov
"09" 09 2025-ci il

***Fənn sillabusu***

**İxtisas:** 050101-Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat

**1. Fənn haqqında məlumat:**

**Fənnin adı:** Dünya ədəbiyyatı-2 Fənn proqramı: Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 13 sentyabr 2024-cü il tarixli 328/32.612 F/2024 nömrəli əmri ilə təsdiq edilmişdir.
**Kodu:** İF-B11.2
**Tədris ili:** II (2025-2026.) Semestr: III
**Tədris yükü:** Auditoriya saatı - 45 (30 saat mühazirə, 15 saat seminar)
**Tədris forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 5 kredit
**Auditoriya**
**Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:** fil.e.d., prof.Kazımov Kamran Şahverən o.
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**Məsləhət günləri və saatı:**
**E-mail ünvanı:** kkamran@mail.ru

**3. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

1. T.Novruzov. Orta əsrlər Qərb ədəbiyyatı tarixi.
2. Yegizarova və b. XIX əsr Xarici ölkə ədəbiyyatı (İ.Şıxlının tərcüməsi)
3. İ.Şıxlı. XX əsr Xarici ölkə ədəbiyyatı
4. Məmməd Cəfər. XIX əsr rus ədəbiyyatı. III cilddə, I cild, 1970.
5. Məmməd Cəfər. XIX əsr rus ədəbiyyatı. III cilddə, II cild,1973
6. Məmməd Cəfər. XIX əsr rus ədəbiyyatı. III cilddə, III cild,1975
7. A.Alməmmədov, Ə Xəlilov. XX əsr rus ədədbiyyatı. B.,1992
8. Rus sovet ədəbiyyatı.Prof. S.Q.Əsədullayevin redaktəsi ilə. B.,1970.

**4. Fənnin təsviri və məqsədi:**

"Dünya ədəbiyyatı" tədris kursu "Azərbaycan dili və ədəbiyyat" kafedrası nəzdində "Filologiya" istiqaməti üzrə ixtisasların tədris planı çərçivəsində işlənmişdir. Tədris planına uyğun olaraq bu kurs bakalavr tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun tədrisi tədris ilinin III semestrində 30 s. mühazirə, 30 s. seminar) nəzərdə tutulur.

Müasir şəraitdə elmi informasiyanın artması yüksək peşə və nəzəri hazırlıqla yanaşı, müstəqil yaradıcı iş bacarığına malik yüksək ixtisaslı filoloqların hazırlanması ciddi əhəmiyyət daşıyır. Bununla bağlı, ali məktəbin tədris planı tələbələrin xarici ölkə ədəbiyyatının məşhur nümayəndələrinin yaradıcılıqları ilə yaxından tanış olmaları, əsərlərinin ümumbəşər əhəmiyyətini, Azərbaycan ədəbiyyatşünaslığında yerinin müəyyənləşdiyini öyrənmələri nəzərdə tutulur.

**5.Kursun məqsədi** "Dünya ədəbiyyatı" kursunun yeni tələblər baxımından tədrisi, dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılıqlarının tələbələrə dərindən mənimsədilməsidir ki, bu da müasir dövrdə təhsildə ən vacib faktorlardan birinə çevrilmişdir. Dünya xalqların zəngin ədəbi – bədii və kulturoloji irsinin öyrənilməsi təkcə bu faktla bitmir, bu proses ədəbi irslərin mənimsənilməsi ilə yanaşı , bu ədəbiyyatların tədqiqində və bir sıra elmi – nəzəri, estetik – metodoloji prinsiplərin də yeni konsepsiyalar əsasında işlənməsində ədəbiyyatşünaslara yardımçı olur.

**6. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən Dünya ədəbiyyatı-1 fənninin tədrisi vacibdir.

**7. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**8. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**9.Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50

balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Hər sual 10 bala qədər qiymətləndirilir. Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçirilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçirilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçirilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*

*-0 bal- suala cavab yoxdur.*

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

***Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)***

| Toplanan bal | Qiymət | Hərflə |
|---|---|---|
| 91-100 | əla | (A) |
| 81-90 | çox yaxşı | (B) |
| 71-80 | Yaxşı | (C) |
| 61-70 | Kafi | (D) |
| 51-60 | qənaətbəxş | (E) |
| 51-dən aşağı | qeyri-kafi | (F) |

**10. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda Əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**11.Təqvim-mövzu planı: 45 saat (30 saat mühazirə, 15 saat seminar)**

| N | Keçirilən mühazirə mövzuların məzmunu | Müh | Tarix |
|---|---|---|---|
| 1 | **Mövzu:**XVII əsr Qərb ədəbiyyatı. Alman ədəbiyyatı.<br>***Qısa icmal:*** XVII əsr burjuaziyanın bir sinif kimi formalaşmasının ilk mərhələsidir. XVII əsr ədəbiyyatında realizm problemi. Klassisizm. Barokko. Rokoko.<br>XVII əsr alman ədəbiyyatı və otuz illik müharibə. Alman klassisizminin xüsusiyyətləri. Martin Opisin «Alman poeziyası haqqında kitab». XVII əsr alman ədəbiyyatında. A.Qrifiusun siyasi faciələri. ***Mənbə:***[1.] | 2 | |
| 2 | **Mövzu:**XVII əsr İspan ədəbiyyatı.<br>***Qısa icmal:***XVII əsr İspan ədəbiyyatının çiçəklənməsi və «qızıl dövrü kimi». İspaniyada mütləqiyyət üsul-idarəsinin xüsusiyyətləri.Lope de Veqa pyeslərinin növ müxtəlifliyi. «Sevilya ulduzu» dramı. Pyesin qısa süjeti. ***Mənbə:***[1.] | 2 | |
| 3 | **Mövzu:**XVII əsr Fransa ədəbiyyatı.<br>***Qısa icmal:*** XVII əsr Fransa tarixinin əsas hadisələri. Ədəbiyyat və incəsənət. Əsas ədəbi cərəyanlar. P.Komelin həyat və yaradıcılığı. Kornelin «Sid» dramı fransız klassisizminin ilk böyük əsəri kimi. J.Rasinin həyat və yaradıcılığı. «Androxoma» faciəsi fransız klassisist dramaturgiyasında yeni dövrün başlanğıcı kimi.<br>J.B.Molyerin həyat və yaradıcılığı.Molyerin Presioz ədəbiyyatı na qarşı mübarizəsi. «Şıltaq ədabazlar». «Don Juan» komediyası klasisizmin yüksək «komediya» janrının nümunəsi kimi. Alsest obrazı. «Xəsis» komediyası.<br>***Mənbə:***[1.] | 2 | |
| 4 | **Mövzu:**XVIII əsr İngilis ədəbiyyatı.<br>***Qısa icmal:***İngiltərədə XVIII əsrdə burjua cəmiyyətinin inkişaf qanunauyğunluqları. D.Defonun həyat və yaradıcılığı. «Robinzon Kruzo» romanı.<br>C.Sviftin həyat və yaradıcılığı. «Qulliverin səyahəti». Əsərin janr problemi.<br>***Mənbə:*** [2] | 2 | |
| 5 | **Mövzu:**XIX əsr Qərb ədəbiyyatında romantizmin təşəkkülü. Almaniyada romantizm<br>***Qısa icmal:*** 1830-1871-ci illərdə tarixi prosesin xüsusiyyətləri. Mərhələlər: 1) 1789-1830-cu illər-romantizmin təşəkkülü və təsirinin yüksəlişi dövrü; 2) 1830-1871-ci illərdə romantizmin formalaşması və estetik görüşlərdə aparıcı mövqe tutması dövrü. Romantiklərin müxtəlif siyasi mövqedə dayanmasının səbəbləri. Sənətin gerçəklik, sənətkarın cəmiyyət üzvlərində üstünlüyü F.Şlegelin estetikasının aparıcı istiqaməti kimi. Şlegelin estetik görüşlərində azadlıq preblemi, onun romantik istehza təlimi.<br>***Mənbə:*** [2] | 2 | |
| 6 | **Mövzu:**İngiltərədə və Fransada romantizm.<br>***Qısa icmal:***Fransız inqilabının ingilis romantiklərinə təsiri. Romantizm cərəyanında müxtəlif siyasi və estetik proqramların | 2 | |

| | | | |
|---|---|---|---|
| | mübarizəsi.C.Q.Bayron. «Çayld Haroldun səyahəti» romantik poeması.V.Skott tarixi roman janrının yaradıcısı kimi. Yazıçının əsərlərində insan və cəmiyyət problemi.<br>V.Hüqo Fransada romantik hərəkatının aparıcı siması kimi. Yazıçının monarxizmdən respublikaçılığa təkamülünün ideya və estetik xüsusiyyətləri. V.Hüqonun yaradıcılığında inqilab və xalq mövzusu. «Səfillər» romanı; J.Sandın»İndiana» romanında qadın hüququnun müdafiəsi məsələsi.<br>***Mənbə:*** [2] | | |
| 7 | **Mövzu:**ABŞ-da romantizm.<br>***Qısa icmal:***Amerikan romantizminin burjua dünyagörüşünə münasibəti. Romantiklərin patriarxal-aristokrat həyat tərzini ideallaşdırılması.C.F.Kuper. «Dəri corab» haqqında romanlar silsiləsi.(pentalogiya) «Pionerlər», «Sonuncu mogikan», «Ləpirçi», «Vəhşi heyvan ovçusu».<br>***Mənbə:*** [2] | 2 | |
| 8 | **Mövzu:**XIX əsr rus ədəbiyyatı. A.S.Puşkin və M.Y.Lermontov yaradıcılığı.<br>***Qısa icmal:***A.S.Puşkinin həyatı, litsey dövrü yaradıcılığı, ilk şeirləri. ''Azadlıq odası''. Poemaları və nəsr əsərləri Sürgün illəri:''Yevgeney Onegin'' mənzum romanı ''Kapitan qızı'' əsərlərində kəndlilərin etirazı. Puşkin və Azərbaycan.<br>M.Y.Lermontovun həyat və yaradıcılığı. M.Y.Lermontovun poemalarının əsas problemləri. ''Mtsıri'' və ''Demon'' poemalarının ideya məzmunu.M.Y.Lermontov və Azərbaycan.<br>***Mənbə:*** [4] | 2 | |
| 9 | **Mövzu:** N.V.Qoqolun və İ.S.Turgenevin yaradıcılığı<br>***Qısa icmal:*** N. Qoqolun həyat və yaradıcılıq yolu. Qoqolun əsərlərində Rusiyadakı mütləqiyyət quruluşunun tənqidi: ''Müfəttiş'' əsərində Xlestakov obrazı və onun süjetdə əhəmiyyəti. Sürətlərin satirik və mübaliğəli təsviri.<br>İ.S.Turqenevin yaradıcılıq yolu. Turgenevin ideya-bədii təkamülü. ''Atalar və oğullar'' romanında Bazarov obrazı. Obrazın ziddiyyətli xüsusiyyətləri.<br>***Mənbə:*** [4,5] | 2 | |
| 10 | **Mövzu:** L.N.Tolstoy yaradıcılığı<br>***Qısa icmal:***L.N.Tolstoyun həyat və yaradıcılıq yolu.''Hərb və sülh''-qəhrəmanlıq, vətənpərvərlik roman epopeyası kimi.''Anna Karenina'' müasir həyat haqqında roman kimi. Romanda məhəbbət, nigah problemi.<br>Tolstoyun rus və dünya ədəbiyyatına təsiri. L.N.Tolstoy və Azərbaycan.***Mənbə:*** [6] | 2 | |
| 11 | **Mövzu:**A.M.Qorkinin yaradıcılığı.<br>***Qısa icmal:***A.M.Qorkinin həyatı və ilk yaradıcılıq axtarışları. Qorkinin inqilabi-romantik əsərləri. Birinci Rus inqilabı ərəfəsində Qorkinin ictimai fəaliyyəti. M.Qorkinin Sovet dövrü yaradıcılığı. M.Qorkinin avtobioqrafik trilogiysası. ("Uşaqlıq","Özgə qapılarında","Mənim universitetlərim")<br>***Mənbə:*** [7,8] | 2 | |
| 12 | Mövzu:XIX ƏSR REALİZMİ<br>***Qısa icmal:***XIX əsr Avropa mədəniyyəti. XIX əsr romantizminin təşəkkülü. XIX əsr realizmin görkəmli nümayəndələri. XIX əsr | 2 | |

| | | | |
|---|---|---|---|
| | Avropa mədəniyyəti<br>*Mənbə:* [2] | | |
| 13 | **Mövzu:**Fransada tənqidi realizm.<br>*Qısa icmal:*P.J.Beranje lirikasının mövzuları üzrə bölgüsü. Beranje satirasının ifşa xüsusiyyətləri. P.Merime əsərlərində burjua cəmiyyətindən narazılığının inikası xüsusiyyətləri. Onun eksperimental əsərləri ( «Klara Qazulun teatrı», «Quzla»). O.Balzak yaradıcılığı. Sosial inkişafın qanunauyğunluqlarının bədii dərkində Balzakın rolu. «Qobsek» və «Şaqren dərisi» əsərləri.<br>*Mənbə:* [2] | 2 | |
| 14 | **Mövzu:**İngiltərədə tənqidi realizm. Ç.Dikkens yaradıcılığı<br>*Qısa icmal:* Çartistlər hərəkatı və ingilis realizminin inkişafı. Çartizmin Tekkerey və digər yazıçıları yaradıcılığına təsiri. Ç.Dikkens realizmində müasir cəmiyyətin təhlili;Dikkens qəhrəmanları mənəvi ideallarn daşıyıcısı kimi. Dikkensin satirik təsvirlərinin mahiyyəti və istiqamətləri<br>*Mənbə:* [2] | 2 | - |
| 15 | **Mövzu:** T.Drayzer yaradıcılığı<br>*Qısa icmal:*T.Drayzer Amerika ədəbiyyatında tənqidi realizmin görkəmli nümayəndəsi kimi. "Dahi", "Kerri bacı", "Cenni Herhardt" əsərləri. Əsərlərdə cəmiyətdə mövcud nöqsanların tənqidi. *Mənbə:* [3] | 2 | |

| N | Keçirilən seminar mövzuların məzmunu | Müh | Tarix |
|---|---|---|---|
| 1 | **Mövzu:**XVII əsr Qərb ədəbiyyatı. Alman ədəbiyyatı. XVII əsr İspan ədəbiyyatı. | 2 | |
| 2 | **Mövzu:**XVII əsr Fransa ədəbiyyatı.XVIII əsr İngilis ədəbiyyatı. | 2 | |
| 3 | **Mövzu:**XIX əsr Qərb ədəbiyyatında romantizmin təşəkkülü. Almaniyada romantizm. İngiltərədə və Fransada romantizm. ABŞ-da romantizm | 2 | |
| 4 | **Mövzu:**. XIX əsr rus ədəbiyyatı. A.S.Puşkin və M.Y.Lermontov yaradıcılığı. | 2 | |
| 5 | **Mövzu:** N.V.Qoqolun və İ.S.Turgenevin və L.N.Tolstoyun yaradıcılıqları | 2 | |
| 6 | **Mövzu:**A.M.Qorkinin yaradıcılığı. Mövzu:XIX ƏSR REALİZMİ | 2 | |
| 7 | **Mövzu:**Fransada tənqidi realizm. İngiltərədə tənqidi realizm. Ç.Dikkens yaradıcılığı | 2 | |
| 8 | **Mövzu:** T.Drayzer yaradıcılığı | 1 | |

**12.Fənn üzrə tələblər, tapşırıqlar:**

Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:

Öyrənən tanış olur:

-tələbələrin xarici ölkə ədəbiyyatının məşhur nümayəndələrinin yaradıcılıqları ilə,

-dünya ədəbiyyatı korifeylərin əsərlərinin ümumbəşər əhəmiyyəti ilə,

-dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan ədəbiyyatşünaslığında yerinin müəyyənləşdirilməsi ilə.

**13. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**14. Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. XVII əsr Qərb ədəbiyyatında klassisizm
2. XVII əsr İspan ədəbiyyatı. Lope de Veqa yaradıcılığı

3. J.B.Molyerin yaradıcılığı. "Xəsis" komediyasının məzmunu və təhlili
4. XVIII əsr İngilis ədəbiyyatı. D.Defonun "Robinzon Kruzo" romanı
5. C. Svift və onun "Quliverin səyahəti" əsərinin qısa məzmunu və təhlili
6. C.Bayronun Şərq poemaları
7. V.Skottun "Ayvenqo" əsərinin məzmunu və təhlili
8. V.Hüqonun "Səfillər" romanının qısa məzmunu və təhlili
9. C.F.Kuper yaradıcılığı
10. A.S.Puşkinin həyat və yaradıcılığı

**II Kollokvium sualları**

1. A.S.Puşkinin həyat və yaradıcılığı
2. A.S.Puşkinin " Yevgeni Onegin" əsərinin məzmunu və təhlili
3. M. Lermontovun həyat və yaradıcılığı.
4. N. Qoqolun həyat və yaradıcılıq yolu
5. N. Qoqolun "Müfəttiş" əsərinin məzmunu və təhlili
6. İ. Turgenevin həyat və yaradıcılığı
7. L.N.Tolstoyun həyat və yaradıcılığı.
8. M. Qorkinin yaradıcılığı
9. M. Qorkinin avtobioqrafik povestləri: "Uşaqlıq"
10. XIX əsr realizmi

**15. İmtahan sualları**

1.XVII əsr Qərb ədəbiyyatında klassisizm
2.XVII əsr İspan ədəbiyyatı
3.Lope de Veqa yaradıcılığı
4.XVII əsr Fransa ədəbiyyatı
5.J.B.Molyerin yaradıcılığı
6.J.B.Molyerin "Xəsis" komediyasının məzmunu və təhlili
7.XVIII əsr İngilis ədəbiyyatı
8.D.Defonun "Robinzon Kruzo" romanının məzmunu və təhlili
9.C. Svift və onun "Quliverin səyahəti" əsərinin qısa məzmunu və təhlili
10.C.Bayronun Şərq poemaları
11. V.Skottun "Ayvenqo" əsərinin məzmunu və təhlili
12. V.Hüqonun "Səfillər" romanının qısa məzmunu və təhlili
13. ABŞ- da romantizm
14. C.F.Kuper yaradıcılığı
15. C.F.Kuperin "Sonuncu mogikan" əsərinin məzmun təhlili
16. C.F.Kuperin "Ləpirçi" əsərinin məzmun təhlili
17. A.S.Puşkinin həyat və yaradıcılığı
18. A.Puşkinin lirikası
19. A.Puşkinin poemaları
20. A.S.Puşkinin " Yevgeni Onegin" əsərinin məzmunu və təhlili
21. Puşkin və Azərbaycan
22. M. Lermontovun həyat və yaradıcılığı
23. M.. Lermontovun lirikası
24. M. Lermontovun "Zəmanəmizin qəhrəmanı" əsərinin məzmunu və təhlili
25. M. Lermontovun poemaları
26. N. Qoqolun həyat və yaradıcılıq yolu.
27. M. Qoqolun "Müfəttiş" əsərinin məzmunu və təhlili

28. İ. Turgenevin həyat və yaradıcılığı
29. İ. Turgenevin "Atalar və oğullar" romanı
30. L.N.Tolstoyun həyat və yaradıcılığı
31. L. Tolstoyun "Anna Karenina " əsərinin məzmunu və təhlili
32. M. Qorkinin həyat və yaradıcılığı
33. M. Qorkinin avtobioqrafik povestləri: "Uşaqlıq"," Özgə qapılarında "
34. M. Qorkinin inqilabi romantik əsərləri ( " İzerqil qarı", "Fırtına quşu" )
35. XIX əsr realizmi
36. Fransada tənqidi realizm
37. O.Balzak yaradıcılığı
38. O.Balzakın "Qobsek" əsərinin məzmunu və təhlili
39. P.Merime yaradıcılığı
40. İngiltərədə tənqidi realizm
41. Ç.Dikkens yaradıcılığı
42. Ç.Dikkens "Oliver Tvistin məcaraları" əsərinin məzmunu və təhlili
43. T.Drayzer yaradıcılığı
44. T.Drayzerin "Kerri bacı" əsərinin məzmunu və təhlili
45. T.Drayzerin "Cenni Herhardt" əsərinin məzmunu və təhlili

**«Dünya ədəbiyyatı-2»** fənninin sillabusu **050101-Azərbaycan dili və ədəbiyyatı müəllimliyi** ixtisasının tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus «Azərbaycan dili və ədəbiyyat» kafedrasında 9 sentyabr 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 01).

**Müəllim:** **prof. K.Ş.Kazımov**

**Kafedra müdiri:** **dos. Q.İ.Rufullayev**

Tanış oldum
dos. E.S. Mirzəyeva